
GÖY
QURŞAĞI
UŞAQ
JURNALI
3(43) may-iyun 2013
1.20 AZN

Tərbiyənin əsası kitabı almaq deyil, ondan istifadə etməkdir.

Plutarx

Yalnız o şey uğrunda ölərlər ki, onun üçün yaşamağa dəysin.

Antuan de Sent-Ekzüperi

Əgər çıxış yolunu özün də bilmirsənsə, kiminsə səhvini üzünə vurma.

Corc Bernard Şou

Ürəyin ləkələnməyindənsə üzünün qızarmağı yaxşıdır.

Migel Servantes de Saavedra

İnsan yeganə heyvandır ki, gülməyi bacarır. Yalnız bunun üçün ən az onun haqqı var.

Ernest Miller Heminquey

Nadan insanlar kütləni daha yaxşı inandırırlar, nəinki oxumuşlar.

Aristotel

Sözün dəymirsə, çubuq da kömək eləməz.

Sokrat

Təbiət bizi girişdə də, çıxışda da yoxlayır. Gətirdiyindən çox apara bilməyəcəksən.

Lutsi Anney Seneka (kiçik)

Hər kəs başqasının bədbəxtliyinə dözəcək qədər güclüdür.

Fransua de Laroşfuko

Pis fikrin yoxdursa, pis əməlin də olmayacaq.

Konfutsi

Məsləhət vermək – səhv etmək deməkdir. Ancaq yaxşı məsləhətə görə səni heç vaxt bağışlamayacaqlar.

Oskar Uayld

Şeytana qarşı ən qorxulu silah mürəkkəb və kitabdır.

Hans Xristian Andersen

# Azərbaycan TORPAĞI

Bəxtəvərsən, bura gəlmək qismət olmur hər kəsə,
Dostumuzdur, kim özünü lovğalanıb öyməsə,
Hiss etməzsən, əziz qonaq, ayaqların dəyməsə,
Bu yerlərin atəşini, - bir yerə düş maşından.

Burda nələr yaradıbdır təbiətin öz əli,
Qayaları dilləndirər Füzulinin qəzəli.
Düz ilqarlı, sərv boylu Azərbaycan gözəli –
Heyrətindən daş olarsan, bir yol keçsə qarşından.

Güneyində qışda günəş qar əridir, buz yeyir,
Əskik olmaz qar tığından yayda belə quzeyi.
Dağlar, daşlar təbiətin əsrarəngiz muzeyi,
Ürək doymur bu yerlərin baharından, qışından.

Qalx zirvəyə, öyünmə ki, sən hamıdan hündürsən,
Ürəyincə cavab verər burda kimi dindirsən,
İgidlər var, yumruğunu qayalara endirsə,
Parçalanar ovum-ovum, seçilərmi daş undan?

İnsanları taleyini işə, gücə bağlayıb,
Kəmənd atıb gur çayları axarından saxlayıb.
Qocalar var bu torpaqda, yaşı yüzü haqlayıb,
Təpəri var ürəyində, gileylənməz yaşından.

Təslim oldun qüdrətimə, iradəmə çar-naçar,
Qobustanım heykəlləşən tariximdən söz açar,
Pis niyyətlə toxundumu, ayaq altdan yer qaçar,
Haray qopar bu yerlərin torpağından, daşından.

Ana torpaq, ana torpaq, həm dərman, həm təbibsən,
Ürəyinin istisini varlığıma səpibsən,
Ayağımı neçə dəfə oxşayıbsan, öpübsən,
Tikan çıxıb qövr eləyən ürəyimin başından.

Rafiq Yusifoğlu

*Salam, dostum! Necəsən? Mən əlayam! Sənə də çoxlu xəbərlərim var! Bilirsən axı, İncəhörümün çinədanında söz çox qalmaz.*













*Ondan başlayım ki, kitabxanamızda böyük bayram vardı. Yadındasa, sənə maarifçi, yazıçı Firudin bəy Köçərlinin 150 illik yubileyini keçirəcəyimizi demişdim. Martın 15-də xeyli qonağımız gəldi. F.Köçərlinin həyatını, əsərlərini tədqiq edən alim Şamistan Nəzirli, uşaq yazıçısı Sevinc Nuruqızı, F.Köçərlinin qohumları Tərlan xanım və Eldar bəy Xəlilovlar, bir də Binəqədi rayonundakı 144 saylı məktəbin şagirdləri ilə müəllimləri kitabxanamızda tədbirə toplaşanlara əsl bayram əhvalı yaşatdılar.*



*Kitab evimizin direktoru Fizurə xanım Quliyeva gələnləri salamladı, dedi ki, hər ay burada F.Köçərli lektoriyası təşkil olunacaq. Musiqi sədaları altında «Vətən, millət fədaisi» adlı kitab sərgisi və çarxlı slaydlar nümayiş olunandan sonra isə səhnəni 144 saylı məktəbin şagirdləri ələ aldılar. İlk dəqiqədən hamını ovsunladılar. Onlar «Tıq-Tıq xanım», «Göyçək Fatma» nağıllarını canlandırdılar, yanıltmac, sayaçı sözləri, uşaq oyunları göstərdilər. Saz çaldılar, yallı getdilər, «Lalələr» rəqsini ifa etdilər. Bir sözlə, əsl aktyor kimi tamaşaçıları heyran qoydular.*









*Şəmistan Nəzirli onları çox təriflədi, dedi: «Ötən əsrin əvvəllərində realist bədii nəsrdə, dramaturgiyada, satirik publisistikada Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, milli musiqinin inkişafında Üzeyir bəy Hacıbəyli hansı zirvədə dayanırsa, gördüyü mühüm işlər sahəsində ədəbiyyatşünaslıq elmində də Firudin bəy Köçərli həmin ucalıqda qərar tutur. Ömrünün 40 ilini millətinin maariflənməsinə, mədəni tərəqqisinə həsr edən, çoxcəhətli yaradıcılığa malik olan Köçərli ədəbiyyat tarixçisi, nəzəriyyəçisi, tənqidçisi, tərcüməçi, mətbuat və teatr qurucusu, pedaqoq, ən başlıcası isə milli duyğulara sahib bir fədai kimi adını tarixə qızıl hərflərlə yazıb. Məhz o, xalqımızın gözəl folklor nümunələrini toplayaraq «Balalara hədiyyə» adı ilə sizlərə ərməğan edib. Bu gün gözəl çıxışınızla onun ruhunu şad etdiniz. Buna görə də hamınıza çox sağ olun deyirəm».*





*F.Köçərlinin qohumu Tərlan xanım Xəlilova uşaqları gözəl çıxışlarına görə təbrik etdi və gələcəkdə onların həqiqətən istedadlı, əsl ziyalı olduqlarını sübut edən bu gün üçün F.Köçərliyə borclu olmalarını dərk edəcəklərini söylədi.*







*Tədbirin sonunda fəal iştiraklarına görə müəllimlərə kitabxananın diplomu, məktəbin direktoru Raya Allahverdiyevaya təşəkkür məktubu, şagirdlərə isə hədiyyələr və «Göy qurşağı» jurnalı verildi. Səni də belə istedadlı uşaqlar sırasında görmək istərdim.*

# mənim rəng dünyam

*İsmayılov Mirismayıl 2-ci sinif şagirdidir. Respublika İncəsənət Gimnaziyasının təsviri və tətbiqi sənət şöbəsində oxuyur. Plakat janrına meyl göstərir.*













*Zeynallı Fatimə də 2-ci sinif şagirdidir. Respublika İncəsənət Gimnaziyasında təhsil alır. Təsviri sənətin kompozisiya, natürmort, mənzərə janrında işləməyi sevir. Sərgilərdə uğurla iştirak edir.*

*Quliyev Fərhad 5-ci sinifdə oxuyur. Sulu boya, pastel boyalarla mənzərə, kompozisiya, natürmort janrlarında rəsm çəkməyi çox sevir. Beynəlxalq sərgi müsabiqələrinin iştirakçısıdır.*





**Nəsilləri böyütdü şeirlərilə. Balalar ata-ana oldular, Rafiq babanın şeirləri qocalmadı. Elə böyüklər də oxuduqca şən, xoşbəxt uşaqlıq illərinə döndülər.**

Əliyev Rafiq Yusif oğlu 1950-ci il yanvarın 2-də Qubadlı rayonunun Çardaqlı kəndində, müəllim ailəsində doğulub. Orta məktəbi doğma rayonunda bitirib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində dilimizin qanunlarını öyrənib. Sumqayıtda müəllim işləyib.

1985-ci ildən 1992-ci ilədək «Göyərçin» jurnalında şöbə müdiri, 1996-cı ilədək məsul katib işləyib. Bir il televiziyada çalışıb. 1997-ci ildən «Göyərçin» jurnalının baş redaktorudur.

Rafiq Yusifoğlu orta məktəbdən yazmağa başlayıb. 1966-cı ildən mətbuatda şeirləri, məqalələri dərc olunub. Çoxlu mahnı mətnlərinin, elmi-publisistik məqalələrin müəllifidir. Son illər tərcüməylə məşğuldur: F.Q.Lorkanın, C.Bayronun, P.Şyuttun, H.Y.Hanzenin, U.Hannın və digərlərinin şeirlərini, dünya uşaq ədəbiyyatı nümunələrini dilimizə tərcümə edib.

Əsərləri əsasında «Qəm karvanı», «Bütün Azərbaycan əsgər olmalı» teletamaşaları çəkilib.

Onlarla kitabı çap olunan şair, yazıçı, tənqidçi Rafiq Yusifoğlu 1986-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, «İlin ən yaxşı kitabı», «Vətən», «Qızıl qələm», «Araz» və s. mükafatların laureatıdır.

Sənə Rafiq babanın dərya-dəniz yaradıcılığından kiçik bir hissəni təqdim edirəm.



# Rafiq Yusifoğlu

## Bir qutu şokoladın nağılı

Bir gözəl xanım məni mağazadan aldı, kağıza büküb qoltuğuna vurdu. Onun yanındakı balaca, toppuş uşağı görəndə sevindim. Düşündüm ki, yəqin, məni bu yeyəcək. Uşağın ağappaq, xırdaca dişlərini öz bədənimdə hiss etdim. Canıma xoş bir gizilti yayıldı. Ancaq... anası qutunun üstünə bükülmüş kağızı açmağa da icazə vermədi.

Gecə o uşaqgildə, servantın içində qaldım. Bura mağazadan da pis imiş. Havasızlıqdan ürəyim sıxıldı. Ancaq necə oldusa, mürgüyə daldım. Yuxumda o uşağın ağappaq, xırdaca-xırdaca dişlərini gördüm...

Yuxum yarımçıq qaldı. Həmin xanım servantın qapısını açdı, məni götürdü. Oğlu da onun yanında idi. Elə qəşəng geyinmişdi ki...

Onlar getdilər, getdilər, yaraşıqlı bir binanın yanına çatdılar. Burada o qədər uşaq vardı ki... Sən demə, həmin bina uşaq bağçası imiş.

Məni mağazadan alan xanım başqa bir xanımla – tərbiyəçi ilə görüşdü, hal-əhval tutdu. Balaca isə uşaqlara qoşuldu. Anası məni müəllimin stolunun üstünə qoydu: «Çay içərsiz», - dedi.

Müəllim nazlana-nazlana cavab verdi:

- Nə zəhmət çəkirsiz?

Mənim onsuz da qara olan bədənim bir az da qaraldı. Fikirləşdim ki, daha o inci dişlər mənim qismətim deyilmiş.

Həmin xanım xudahafizləşib çıxdı. Müəllim də onu yola salmağa getdi. Elə bu an həmin balaca oğlan üstümə cumdu. Bir göz qırpımında qutumu açdı, şokoladları bir-bir uşaqlara payladı. Axırıncı şokoladı öz ağzına basanda tərbiyəçi qayıtdı. O, acıqlı idi. Uşaqlarınsa heç nə vecinə deyildi. Hamı şirin-şirin şokolad yeyirdi. Mən də sevindim. Çünki yuxum çin çıxmışdı...

# Kitabxanaçı

Məni bura çəkir qəlbimin səsi,
Kitab qalmayıbdır oxumağa da.
Sən bu kitabların nadir nüsxəsi,
Həsrətəm cildinə toxunmağa da.

Bəlkə, kiminçünsə heçdir bu gövhər,
Gözümə göz yetir, o duyur səni.
Qədrini bilməyən ayrı bəxtəvər,
Bəlkə də, candərdi oxuyur səni...

# Dilimizin sözləri

Elin də tarixi var,
Dilin də tarixi var.
İgid odur, xalqının
Keçmişindən
Söz aça.
Dil – tükənməz xəzinə,
Məna – kilid,
Söz – açar.
Söz ləpədir, dalğadır,
Dil ümmandır, dənizdir.
Dilimizin sözləri
Müqəddəsdir, əzizdir.

Sözün hər çalarında
Həyatın sehri vardır.
Söz babaların bizə
Qoyduğu yadigardır.
Halal ocağımızda
Közü qorumalıyıq.
Sözü yaşatmalıyıq.
Sözü qorumalıyıq.
Kim ki sözü unutdu,
O, həyatda uduzdu.
Söz – dil kəhkəşanında
İşıq saçan ulduzdur!

# Təbiətin dörd keşikçisi

- Gülləri, çiçəkləri
Niyə qəmgin edirsən?
Səndən ki doymamışıq,
Bahar, hara gedirsən?
- Gedirəm ki, Yay gəlsin,
Qızlar çıxsın yamaca.
Çimərliklər, yaylaqlar
Qəribsəyib yamanca.
Ələnsin çölə, düzə
Günəşin nur işığı.
Buz bağlamış dağların
Açılsın qırışığı.
- Təzə qızıb canımız,
Hara gedirsən, a Yay?
- Gedirəm, Payız gəlsin
Əlində yüz sovqat, pay.
Qızıllansın ağaclar,
Meşə kövrəlsin bir az.
Həmişə deyib-gülmək,
Çalıb-oynamaq olmaz.
- Saralmış yarpaqları
Hey yığıb, yığışdırıb,
Payız, hara gedirsən?
- Astanada Qış durub...
Gedirəm ki, o gəlsin,
Hər yana qar ələsin.
Təbiəti ağappaq
Bir örtüklə bələsin.
Torpaq yorulub yaman,
Dincəlməkçün gələn yaz,
Qar yorğanın altında
Yatıb dincəlsin bir az.
- Ay Qış, hara gedirsən?
Soruşub köks ötürdüm.
- Gedirəm, Bahar gəlsin,
Mən növbəti bitirdim...
Bahar, Yay, Payız və Qış -
Biz dörd qardaş, dörd fəsil,
Keşiyini çəkirik
Təbiətin müddəsil...

# «DÖRDAYAQLI» qanunlar

Bəzi ölkələrdə başbilənlər hərdən elə qanunlar qoyurlar ki... Hələ heyvanlar haqqında olanların bəziləri çox gülməlidir. Düzdür, heyvanlar onsuz da onları oxuyub gülən, ya da özlərinə olan bu «sayğı»dan sevinən deyillər, amma bizim bunları bilməyimizdə fayda var: bəlkə, həmin ölkələrə yolumuz düşdü?

*Afrikada kenquruya öz ailə problemlərin və qayğıların barədə danışa bilməzsən, qanun icazə vermir.*

*ABŞ-ın Ohayo ştatında adamlar bir-birlərinə sürünən heyvan ata bilməzlər.*

*ABŞ-ın Nyu-Cersi ştatının Kressil şəhərində bütün pişiklərin boynunda üç zınqırov olmalıdır ki, o, quşlara yaxınlaşdığı barədə xəbər versin.*

*ABŞ-ın Minnesota ştatının İnterneşnl-Fols şəhərində pişiklərə itləri arxalarınca salıb telefon xətlərinin yanına gətirmək qadağandır.*

*Arizonaya eşşəklə getmisənsə, onu vanna otağında yatızdıra bilməzsən, qəti qadağandır.*

*ABŞ-ın Minnesota ştatında ördəyi başına qoyub sərhədi keçmək olmaz.*

*Argentinada sənə it hürsə, sənin ona cavab olaraq hürmək haqqın var. Amma bu zaman iti dişləmək qəti qadağandır.*

*ABŞ-ın Pensilvaniya ştatında balığı ağızla tutmaq yasaqdır.*

*ABŞ-da meşədə gəzirsənsə, orada yatmış ayı görmüsənsə və onunla şəkil çəkdirmək istəyirsənsə, onu qətiyyən oyatma! Bu ölkədə ayılarla şəkil çəkdirmək üçün onları oyatmaq qadağandır.*

*ABŞ-ın Cənubi Karolina ştatında isə it hürərək polisin zəhləsini tökərsə, onun həmin heyvanı susdurmaq üçün dişləməyə haqqı var.*

*Oklahomada itlərin ağız-burnunu əyən adamları ciddi pul cəriməsi, hətta həbs gözləyir.*



*Əgər Rumıniyadasansa, dalınca da it düşübsə, qışqırma, orada bu qəti qadağandır. Sən qaçıb canını qurtarmalı, üstəlik, bu zaman gülümsəməlisən. Axı it insanın dostudur.*

**At üstündə səyahət edirsən? Hər ehtimala qarşı onun üçün şalvar götür, bəlkə, Cənubi Dakotaya getdin? Oradakı Fountain İnn otelində atlara, şalvarları yoxdursa, qalmağa icazə vermirlər.**

# Atalar Günü

*Dünyanın bəzi ölkələrində iyun ayının üçüncü bazar günü qeyri-adi və vacib hesab olunur. Həmin gün ata adını daşıyan kişilərin bayramıdır. Axı ana ilə yanaşı, ata da ailənin təməlidir, övladının dayağı, müdafiəçisi, məsləhətçisi, müəllimi və köməkçisidir. Bu siyahını uzatmaq da olar, axı hər kəs üçün onun atasının öz anlamı var, hər kəsə atası bir cür doğma, yaxındır.*

*Bayramın tarixi də maraqlıdır. 1909-cu ildə amerikalı Sonora Smart yerli idarə orqanlarına öz şəhərlərində belə bir günün keçirilməsini təklif edib. Sonoranın anası tez ölüb, qızın bütün əziyyətini atası, Uilyam Cekson Smart çəkib, onu böyüdüb, boya-başa çatdırıb. Sonora atasını çox sevirdi və bu əziyyətinin müqabilində onun şərəfinə belə bir bayram keçirilməsini, bütün ataların da ona örnək olmasını istəyirdi.*

*İndi bu bayram təkcə ABŞ-da deyil, həmçinin Böyük Britaniyada, Hollandiyada, Fransada, Çində də qeyd olunur.*

*Elə bizdə də iyunun son həftəsinə təsadüf edən gözəl bayram var: iyunun 26-sı Milli Ordu Günüdür. Yəni tək ailəmizin deyil, həm də vətənimizin müdafiəçilərinin günüdür.*

*Dostum, bir söz deyimmi? Valideynlərinə onlara olan sevgini bildirmək üçün xüsusi, bayram günlərini gözləmə. Axı onlar yalnız ilin bir günü - iyunun 1-də, yəni Uşaqların Hüquqlarının Müdafiəsi Günündə səni sevib, əzizləyib, qarnını doyurub, əynini geyindirib şəfqət göstərmirlər. Ümumiyyətlə, onların sənə nə isə etmələrindən asılı olmayaraq, valideynlərini həmişə sev. Bir gün sən də valideyn olacaqsan!*



# Sənə yazırlar

Axırıncı oxuduğun kitabın adı nədir? Mən onu oxumuşam? Bəs sənin bizim yeni kitablarımızdan xəbərin var?

**V-MİLLİ UŞAQ KİTABI SƏRGİSİ**
**2-5 APREL 2013**

Sərgidə Azərbaycan nəşriyyatları tərəfindən son dövrlərdə nəşr olunmuş uşaq ədəbiyyatı nümayiş olundu. Şəkillərini paylaşıram. Özün bax, seç, gəl kitabxanamıza, oxu.




Ötən ay F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında 2 aprel Beynəlxalq Uşaq Kitabı Gününə həsr olunmuş V Milli Uşaq Kitabı Sərgisi keçirildi.

















# O küçədən

*Onların şəkillərini bir-birlərinə göstərib deyirlər: «Bax, bax! Mən burada olmuşam. Buradan keçmişəm. Bilirsən, necə gözəldir...»*

**Dünyada milyonlarla küçə var. Amma onlardan çox azı belə təəssürat yaradır. Bunlara sənin də baxmağını istədim - dünyanın ən məşhur küçələrinə.**




*Lombard Strit San-Fransiskoda yerləşir. Burada hərəkət birtərəfli, ziqzaqabənzərdir. Onu Russian Hill (Rus təpəcikləri) də adlandırırlar. O, dünyanın ən dolanbac küçəsidir.*

*Ebbi Roud (Abbey Road) Londonun şimalındadır. Əfsanəvi «Beatles» qrupu mahnılarının 90%-ni bu küçədə yazdırıb. 1969-cu ilin aprelində «Beatles» son qrup albomunu burada yazdırdı və adını «Abbey Road» qoydu. O, ən çox satılan albom oldu. İndi minlərlə adam albomun üstündəki şəkli yamsılamaq üçün Ebbi Rouddakı keçidə gəlir, foto çəkdirir.*





*Hollivudun şərəf xiyabanı Los-Ancelesdədir. Məşhur ulduzların, müğənnilərin, aktyorların, musiqiçilərin, rejissorların, prodüserlərin, incəsənət adamlarının şərəfinə səkiyə yapışdırılmış ulduzlardan təşkil olunub. Burada 2400-dən çox ulduz var.*

*Uoll-strit tarixi maliyyə mərkəzi, həmçinin Nyu-Yorkun Fond birjasının məskənidir. Brodveydən İst-Riverə düşən dar küçəni 17-ci əsrdə hollandların öz yaşayış yerlərini qorumaq üçün tikdikləri divarın şərəfinə belə adlandırıblar (Wall Street – Divar küçəsi).*





*Orçard-roud Sinqapurun əsas ticarət küçəsidir. Burada çoxlu ticarət mərkəzi, gecə klubu və otel var. Həmçinin ölkə prezidentinin rəsmi iqamətgahı Orçard-roudda yerləşir.*



*Yelisey çölləri Parisdə, Zəfər tağından Razılıq meydanınadək uzanır. Xeyli kinoteatr, kafe, bahalı mağazalar, ofislərin yerləşdiyi küçədə çox az adam özünə ev ala bilir.*

# MƏN DƏ KEÇDİM

# Balıqcıl pişik, nə tutmusan?

**Dostların qonaq gələndə onların önünə dadlı, faydalı, həm də qəşəng xörək qoymaq istəyirsən? O zaman önlüyünü tax, papağını qoy, bu gün boşqabda balıq tutan pişik «çəkirik».**



*Bir «pişik» üçün lazım olan ərzaq:*

- 1 pay spagetti (100 q)
- 3 x.q. tomatlı sous (məsələn, «Bolonyez», yaxud ketçup)
- 2 dilim qabaq
- 10 ədəd göy noxud
- 1 dilim yerkökü
- 1 qara zeytun
- 6 budaq göy soğan

*Spagettini bişirmək asandır. Əgər təcrübən yoxdursa, mütləq böyükləri yardıma çağır. Suyu qazana tök, qaynat, duz vur, uzun vermişelləri qırmadan qazana sal, bişdikcə özü yumşalıb bərk hissələri qazana yığışacaq. Sonra bunu kəfkirlə aşsüzənə yığ. Ya da böyüklərdən kömək istə ki, spagettini süzsünlər: unutma, qaynar qazanla iş görərkən ağır yanıq xəsarəti ala bilərsən.*







1 *Enli boşqabın yuxarı hissəsinə spagettini təpəcik kimi yığ. Bu, pişiyin «başı»dır.*

2 *Spagettidən pişiyin «qulaqları» və «bədəni»nin konturlarını hazırla.*

3 *Şəkildəki kimi «tilov» düzəlt.*



4 *İki dilim qabaqdan «göz» qoy. İki noxudu bu dilimlərin üstündə bir-birinə yaxın yerləşdir. Bunlar «bəbək» olsun. Qara zeytundan «burun», yerkökündən «ağız» düzəlt.*



5 *«Tilov»u hələlik kənara qoy. Bədənin konturlarının içini tomat sousu və ya ketçupla doldur.*







6 *«Tilov»u yerinə qaytar. Göy soğandan «bığ» düzəlt.*

7 *Göy noxuddan balıq tutmaq üçün yem – «qurd» – düzəlt.*

8 *Balıqcıl pişiyimiz hazırdır.*

### Daş kukla

1889-cu ildə Aydaho ştatının Nampa şəhərində buruq qazılarkən 320 fut dərinlikdə insan əlilə düzəldildiyi güman olunan daş kukla tapıldı. Maraqlıdır ki, bu kukla insanların bu qitəyə ayaq basmasından xeyli əvvəl basdırılıb. Amma alimlər bu məsələnin üstündə baş sındırmaq istəmədilər, sadəcə dedilər: ola bilməz, mümkün deyil.





### Çində mozaik naxış

Bu qəribə nəhəng naxış Çinin Qansu Şen əyalətində tapılıb. Onu kim, niyə, necə çəkib - heç kim bilmir. Qeyri-rəsmi mənbələr göstərir ki, bu naxış 2004-cü ildə yaranıb. Xətlər Ümumdünya İrsi elan olunmuş Maqao mağarasının yaxınlığındadır.



### Qədim kosmik raket

Yaponiyada, bir mağaranın iç divarına çəkilmiş bu şəklin tarixi e.ə. 5000-ci ilə gedib çıxır.



### 300 milyon yaşı olan dəmir bolt

1998-ci ildə Moskvadan cənub-qərb istiqamətində 300 kilometrlik ərazini tədqiq edərkən rus alimlər meteorit qalıqları axtarırdılar. Əvəzində içində dəmir bolt olan daş tapdılar. Geoloqlar bildirirlər ki, boltun 300-320 milyon il yaşı var. Amma həmin vaxt orada heç dinozavrlar da yox idi, hələ qalsın insan. Boltun uzunluğu 1 sm-ə yaxın, eni 3 mm-dir.



# Dünyanın 13 izaholunmaz sirri

# Bu sirləri kim açacaq?

### Piramidaların enerjisi

Meksikadakı qədim Teotiuakan şəhərinin divarlarında iri slyuda layları sanki əllə vurulub. Buraya ən yaxın slyuda karyeri Braziliyada, Teotiuakandan minlərlə kilometr aralıdadır. Bizim dövrümüzdə slyudadan enerji istehsalında istifadə olunur. Şəhərlilərin bu laylardan nə məqsədlə istifadə etmələri sual altındadır. Bəlkə, onlar bizim bilmədiyimiz enerji əldə etmə texnologiyasına malik idilər?





### İlk daş təqvim

Nabta adlanan ən qədim astronomik daş təqvim Misirdə, Saxara səhrasında yerləşir. Məşhur Stounhencdən 1000 il əvvəl adamlar çoxdan qurumuş gölün sahilində iri, azı üçmetrlik sal daşlardan çevrə çəkiblər. Şəkildə görünən onların yalnız indiyədək salamat qalmış bir qismidir. Vaxtilə buranın savanna olduğu güman olunur. İlk insan yaşayış məskənləri isə burada eramızdan təxminən 10-8 min il əvvəl yaranıb.

### Daş nəhəng

1895-ci ildə İngiltərənin Antrim şəhərində qazıntılar aparılarkən 12 fut (3,7 m) hündürlüyü olan daşlaşmış nəhəng tapılıb. Nəhəngin şəkli 1895-ci ildə dərc olunmuş «Strend» jurnalından götürülüb (dekabr buraxılışı). Nəhəngin hündürlüyü 3,7 m, sinəsinin çevrəsi 2 m, əllərinin uzunluğu 1,4 m-di. Sağ ayağında isə 6 barmağı vardı.



# Ağac başı, günəş altı, yaşıllıq

Evin damını hər səhər buludlar sığallayıb keçir, Günəş göyə qalxmadan, dan yeri ağaran kimi şüaları otağı nura boyayır, amma ayağını evin kandarından torpağa qoymaq istəsən, gərək 30-35 m aşağı tullanasan. Avropalı üçün əcəb romantikadır. Amma Yeni Qvineyada yaşayan Kombai və Korovai qəbilələri üçün - adi həyat tərzi.

Ağacların başında tikilmiş evlərə baxanda adama elə gəlir ki, külək bir az da bərk əssə, onlardan çöp də qalmaz. Amma Yeni Qvineya sakinləri hər axşam bu evlərə nəinki özləri dırmaşır, hətta xırdalı-irili ev heyvanlarını da qaldırırlar.

Korovai və Kombai qəbilələrinin adamları onlarla metr hündürlükdəki ağacların başında yaşamaqla özlərini cadudan uzaq hesab edirlər. Belə evin başqa üstün cəhəti də var: uzunmüddətli leysan vaxtı evi su basmır.

Korovai qəbiləsi indiyədək öyrənilməyib. Alimlər güman edirlər ki, adada onların sayı 2-3 mindir. Onlar köçəri həyat tərzi keçirir və Kombailər kimi cəngəlliklərin dərinliklərində, ağac başında yaşayırlar.



Qəbilədəki evlərin əksəriyyəti yerdən 10-20 m yüksəkdədir. Amma elələri də var ki, düz 50 m hündürlükdə tikilib.

Açıq səmada, torpaqdan uzaqda yaşayışın, təbii ki, üstün cəhətləri var. Mağaradan fərqli olaraq, burada yırtıcılar narahat etmir, həmçinin ev həmişə quru, isti və işıqlıdır. Hündürə dırmanmağı nəzərə almasaq, lap ideal yaşayış yeridir.

Korovailəri həm də «ağacda yaşayan insanlar» adlandırırlar. Onlar əsasən ovçuluq və yığıcılıqla məşğuldurlar. Etiqadları hələ də öyrənilməyib.



Bu qəbilələr 1970-ci ildə «kəşf» olunsalar da, elə üzvləri var ki, indiyədək avropalıların üzünü də görməyiblər. Bəlkə də, bu, onların xoşbəxtliyidir.







# FİKİRLƏRİ OXUYAQ?

*Hamı ana dilini, bəziləri hətta bir neçə xarici dil bilir, bunların köməyilə fikirlərini bildirirlər. Amma başqa, hamının başa düşəcəyi «beynəlxalq» bir dil də var: jestlərin dili.*

Bəzən insan şüursuz olaraq, iradəsinin əleyhinə hərəkətlər edir. Söhbət vaxtı jestləri saxtalaşdırmaq çox çətindir: əgər adam yalan danışırsa, onu mimikası «satır». Bu səbəbdən bəzən jestlər adamdan daha doğru danışır, onun fikirlərini daha düzgün ifadə edir. Odur ki, bədən üzvlərinin dilini bilmək daha faydalıdır.

***Psixoloqlar deyirlər ki, ünsiyyət zamanı informasiyanın 60-80%-i jestlər vasitəsilə ötürülür.***









## Əl

Həmsöhbətinin əlinin vəziyyəti onun səmimiliyindən xəbər verə bilər.
Qədim zamanlardan açıq əl səmimilik, etibar və inam rəmzi hesab olunur.
İnsanın gizlətməyə heç nəyi yoxdursa, o, həmsöhbətinə açıq ovcunu, yaxud əllərini yana açaraq hər iki ovcunu göstərir.
Yalan danışırsa, əllərini arxada gizlədir, cibinə qoyur, yaxud da sinəsində çarpazlayır.
Yumruğu düyüb şəhadət barmağını yuxarı qaldırmaq aqressivlik hesab edilir.
Əlləri bir-birinə sürtmək adamın nəyisə gözlədiyindən xəbər verir.

***Belə bir adət var: insanlar and içərkən əllərini ürəklərinin üstünə qoyur, yaxud da müqəddəs kitaba basırlar.***

***Əl tutuşma adəti qədimlərdən qalıb. Bunun mənası qarşıdakı adama silahın və pis niyyətin olmadığını göstərmək idi. Sonra bu jest havada əl yelləməklə əvəz olundu. İndi isə salamlaşma sayılır.***



Valideynlərimizlə birlikdə oxuyuruq!



# Əl sıxma

Ünsiyyətdə kim üstündür? Bunu əl verib görüşən zaman ayırd etmək olur.
Adətən, vəziyyətə hakim olan şəxs əlini birinci uzadır. Üstəlik, ovcu üzüaşağıdırsa, deməli, üstünlüyə can atır.
Tanış olarkən, yaxud salamlaşarkən ovcunu açıq (üzüyuxarı) tutaraq irəli uzadan adam isə təşəbbüsü, üstünlüyü həmsöhbətinə ötürmüş sayılır.
İki hökmlü adam əl verəndə isə maraqlı vəziyyət yaranır: onların hər ikisi əllərini bir-birlərinə ovucları üzüaşağı olaraq verməyə çalışırlar.
Ən aqressiv əl tutuşma isə birinin ovcunu tamamilə üzüaşağı, yerə paralel tutaraq salamlaşmasıdır. Bu jest qarşıdakını tamamilə tabe olmağa vadar edir, yəni qarşıdakı ovcunu üzüyuxarı tam açaraq verilən əli tutmalı olur. Belə halda aqressiv müsahibi neytrallaşdırmaq üçün uzanan əlin biləyindən tutub yüngülcə silkələmək olar.



*Adam barmaqlarını çarpazlayıbsa (iki əlinin barmaqlarını bir-birinə geydiribsə), o, ümidini itirib, qanı qaralıb və mənfi münasibətini gizləməyə çalışır. Bu, xüsusilə dirsəklərin masaya söykəndiyi, barmaqları bir-birinə keçirilmiş əllərin isə üz səviyyəsində olduğu zaman daha aydın bilinir.*

## BARMAQLAR

Baş barmağın şəhadət barmağa sürtülməsi adamın pul gözlədiyini bildirir.
Adam yumruğunu düyünləyib, baş barmağı isə irəli çıxırsa, deməli, o, aqressiv və hökmlüdür.
Düyümlənmiş, baş barmağı açıq yumruğunu sinəsinə sıxıbsa, deməli, özünün haqlı olduğuna əmindir.
Adam əllərini şalvarının arxa ciblərinə qoyubsa, amma baş barmaqları çöldə qalıbsa, deməli, o, hazırki şəraitdə üstün olduğunu gizlətmək istəyir.
Adam əlini qoynunda çarpazlayıbsa, amma baş barmaqları irəli çıxırsa, o zaman həmin adam baş verənləri pis qiymətləndirir, eyni zamanda öz fikrini düz və bu situasiyada həlledici hesab edir.
Əgər adam danışıq vaxtı kimisə baş barmağı ilə göstərirsə, həmin adama pis münasibət bəsləyir və kinayəsini gizləmir.
Adam yalan danışanda instinktiv olaraq əlilə ağzını tutur, baş barmağını yanağına sıxır, bu jestini maskalamaq üçün isə bəzən hətta öskürür də.





Zərərli yemək pis əhvalı daha da korlayır. Fast-fud, çips kimi yeməklərdən yeyib, əhvalının yaxşılaşacağını düşünürsənsə, yanılırsan, hər şey tərsinədir. Həmçinin zərərli qida adamda depressiya yaradır.





# Nələr olur

*İnsanların mədəsi düşündüklərindən də ağıllıdır. İnanmırsan? İş burasındadır ki, mədə-bağırsaq sistemində bir çox heyvanların beynindəkindən çox neyron var. Bu səbəbdən demək olar ki, adamların mədəsində ikinci beyin var.*

Avstraliyalı alimlər insanın beyninin işini gücləndirmək üçün ona müəyyən miqdarda elektrik cərəyanı ötürürlər. Belə təcrübədən sonra adam ən çətin məsələləri asanlıqla həll edir. Həm də bu bacarıq 6 ay müddətində itmir. İndi alimlər hamının bu bacarıqdan yararlanması üçün xüsusi rahat cihaz hazırlayırlar.



Velella, yaxud bənövşəyi meduza sürətlə üzməyi xoşlayır. 2,5 sm uzunluğu olan bu meduza nazik, yelkənə bənzəyən qabarcığını (pnevmatoforanı) suyun üzərində saxlayır. Hava bu qovuqcuğun içinə dolduqda meduzanı sürətlə irəli aparır. Ancaq velella yaxşı «dənizçi» deyil, bu səbəbdən də idarə edə bilmədiyi qovuqcuğu bəzən güclü küləyin təsirindən onu havaya qaldırır və aparıb susuz sahilə çıxarır.

Onlarla qara milçəyin birdən dişləməsi ölümə səbəb ola bilər. 2010-cu ildə ABŞ-ın Luiziana ştatında, zooloji tibb fakültəsinə 20 ədəd halsız quş gətirdilər. Onların tüklərinin dibində, dərinin üzərində yüzlərlə xırda qançır vardı. Tezliklə onların yarısı öldü. Diaqnoz isə təəccüblü idi — qara milçək dişləməsi. Qara milçəklər çirkli yerlərdə yaşadıqlarından onların seliyində xeyli zəhərli maddə var. Bu səbəbdən də bir neçə milçəyin dişləməsi ağır xəstəliklər, korluq və ölüm yarada bilər.

Bitkilər, doğrudan da, danışa və eşidə bilirlər. Otlar və ağaclar boruda su axan zaman çıxardığı kimi fısıltılı səslər çıxarır. Kroulidəki Qərbi Avstraliya Universitetinin alimləri təcrübə aparıblar. Məlum olub ki, qarğıdalının kökləri 220 Hers tezlikdə pişik kimi mırıldanır. Çili istiotunun yanında şirin şüyüd basdıranda o daha tez böyüməyə başlayıb. Üstəlik, onların əkildikləri dirriyi elə düzəldiblər ki, bitkilər bir-birinin «səs»ini «eşidə» bilsinlər, amma qoxularını duymasınlar.
Köklər torpaqdan suyu çəkib yuxarı, yarpaqlara ötürürlər. Bu, kanalizasiya sistemi ilə suyun axmasına bənzəyir. Torpaqdan su ilə bərabər hava qabarcıqları sorulduqca səs alınır. Torpaq nə qədər qurudursa, ağacın «səsi» də bir elə çox çıxır. Bəzi bitkilər isə biz internetdən istifadə etdiyimiz kimi, «danışmaq» üçün göbələklərdən istifadə edirlər (göbələklər bir kökdən müxtəlif istiqamətlərə metrlərlə uzaqlığa yayıla bilir).



# dünyada?

Tısbağalar qocalmaqdan ölmürlər. Onlar yüz ildən də çox yaşayır, zamanın keçməsini, illərin, qərinələrin ötməsini sakitcə izləyirlər. Kəlküttədə bir tısbağa 250 il yaşamışdı. İş burasındadır ki, onların bədənləri və daxili orqanları qocalmır, sıradan çıxmır. Buna görə də tısbağalar qocalıqdan deyil, xəstəlikdən, aclıqdan, yaxud düşmən yemi olmaqdan ölürlər.





Qocaldıqca insanın əqli qabiliyyətləri zəifləyir. Alimlər bunun qabağını almaq üçün daim beyni krossvord və məsələ həll etməklə çalışdırmağı məsləhət görürlər. Bu, əqli zəifliyin qarşısını almaqda 50% səmərə verir. Ancaq sən demə, bundan daha güclü vasitə varmış. Rəqs qocalıqda ağıl zəifliyinin qarşısını düz 76 faiz alır. Özü də bu effekti başqa fiziki hərəkətlər — qaçış, üzgüçülük deyil, məhz rəqs verir. Səbəb də budur ki, o biri hərəkətlər monotondur, rəqs isə yaradıcı yanaşma tələb edir.

# Çox oxusan – çox bilərsən






**"Azərbaycan mifləri"**

Kitabdakı oğuz mifləri, boz qurd mifləri, ilanla bağlı miflər, divlə bağlı miflər, qarılarla bağlı miflər və s. rəngli şəkillərlə birlikdə çox xoşuna gələcək.


























**Xurşidbanu Natəvan**
**"Neçin gəlməz"**

Bu topluya istedadlı şairənin şeirləri və öz əli ilə çəkdiyi rəsmləri ilə yanaşı, həyatından maraqlı əhvalatlar toplanıb. Onun məşhur "Neçin gəlməz" qəzəlinin adı ilə nəşr olunub.

**"Dünya xalqlarının nağılları"**

Bu kitabda şotland, yamayka, bolqar, fransız, italyan nağılları toplanıb.

**Yusif Həsənbəy**
**"Sualtı döyüşlər... NEXT - özgə millət"**

Romanın, demək olar ki, bütün qəhrəmanları müasir dənizçilərdir. Əsər elə ilk səhifələrindən oxucunu ram edir, hadisələri izləməyə həvəsləndirir.

**"Sarı ağacdələn ordeni"**

Dünya Uşaq Ədəbiyyatından Seçmələr – Məktəb kitabxanası silsiləsindən olan bu topluya nağıl, hekayə və şeirlər daxildir.

**Məmməd Səid Ordubadi**
**"Dumanlı Təbriz"**

Kitaba məşhur romanın üçüncü və dördüncü hissələri daxildir.
















**Mirzə Ələkbər Sabir**
**"Hophopnamə"**

Sabirin bütün əsərlərini əhatə edən bu kitabda onun satirik şeirləri ilə yanaşı, məktəb uşaqları üçün qələmə alınmış şərqi, mənzum hekayə və təmsilləri, felyetonları, məktubları yeni tərtib prinsipləri üzrə toplanıb.

**"Azərbaycan xalq uşaq oyunları"**

Kompüterin, telefonun həyatımızda getdikcə daha çox yer tutmasına baxmayaraq, oyun oynamasalar, uşaqlar inkişaf etməzlər. Bu kitabda 77 çox qədim, "rezin top"a qədərki dövr oyunları daxil edilib.

**"Günəşdən gələn pay"**

Dünya Uşaq Ədəbiyyatından Seçmələr - Məktəb kitabxanası silsiləsindən olan bu toplu 5-8 yaşlı uşaqlar üçün nəzərdə tutulmuş nağıl, hekayə və şeirlərdən ibarətdir.

**Nərgiz Cabbarlı**
**"Axundzadə şəxsiyyəti"**

Kitabda Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin yaradıcılığı və həyat yolu ilə bağlı maraqlı məqamlardan söhbət açılır.

**Coel Çendler Harris**
**"Rimus dayının nağılları"**

Bu nağılı ona çox xeyirxah və mehriban qoca zənci - Rimus dayı - söyləyirdi. Coel Rimus dayını çox sevirdi. Həmişə onun gülməli nağıllarını yada salardı. Hətta yazdığı kitabı da Coel belə adlandırdı: "Rimus dayının nağılları".

# MƏNTİQİ SUAL

- 1. Bir adamdan soruşdular:
  - Neçə yaşınız var?
  - Çox. Bəzi qohumlarımdan düz 600 dəfə böyüyəm.
  Belə ola bilərmi? Niyə?

- 2. Masanın kənarına dəmir banka qoyulmuşdu, ağzı möhkəm bağlı idi, özünün də 2/3 hissəsi stoldan kənara çıxmışdı. Bir müddətdən sonra banka yerə düşdü. Onun içində nə vardı?

- 3. Həftənin beş gününü say, amma rəqəmlərdən (birinci, ikinci və s.) və həftənin günlərinin adından (bazar ertəsi, çərşənbə axşamı və s.) istifadə eləmə.

- 4. Stolun üstündə xətkeş, karandaş, pərgar və pozan var. Kağızın üstündə dairə çəkmək tələb olunur. Birinci nədən başlamaq lazımdır?

- 5. Yağış yağanda dovşan hansı ağacın altında oturur?

**Ötən sayımızdakı (2-42) məntiqi sualların cavabları:**

- 1. Kompasın əqrəbinin bir ucu şimalı, əks tərəfi isə cənubu göstərir. Ancaq cənub coğrafi qütbündə hər şey tərsinədir. Ondan hansı istiqamətə dönsən, ora şimala baxacaq. Ona görə də cənub qütbündə yerləşdirilən kompasın əqrəbinin hər iki tərəfi şimalı göstərəcək. Eləcə də şimal qütbündə yerləşdirilən kompasın əqrəbinin hər iki tərəfi cənubu göstərəcək.





- 2. Birinci torbadan bir, ikincidən iki, üçüncüdən üç və bu qayda ilə bir-bir artıraraq 10-cu torbadan 10 qəpik çıxarmaq lazımdır. Onların cəmi 55 edir. Əgər qəpiklərin içində saxtası olmasaydı, o zaman onların birlikdə çəkisi 550 q olmalı idi. Amma bunların arasında saxta qəpiklər də olduğundan çəki dəyişəcək. O zaman saxta pulların olduğu torbanı tapmaq asan olacaq. Məsələn, əgər qəpiklərin ümumi çəkisi 551 q olarsa, onda saxta pullar birinci torbadadır, çünki oradan 1 qəpik götürülmüşdü. 552 olarsa – ikinci torbada, 553 olarsa – üçüncüdə və s.-dir. Beləliklə, ancaq bir dəfə çəkməklə saxta pulların olduğu torbanı tapmaq olar.

- 3. Əlbəttə, olmaz. 72 saatdan, yəni üç sutkadan sonra yenə gecə saat 12 olacaq. Gecə isə Günəş işıq saçmır (ancaq cavab o zaman doğrudur ki, söhbət qütb dairəsindən yuxarıda və qütb günü baş verməsin).

- 4. Doğrudan da, tutuquşu eşitdiyi hər sözü təkrarlaya bilir. Amma həmin tutuquşu kardı və heç bir sözü eşitmədiyindən təkrarlaya bilmirdi.

- 5. Olar. Ocağın üstündə kağız tutanda o, əlbəttə ki, yanmalıdır. Amma iş burasındadır ki, suyun qaynama temperaturu kağızın alışma temperaturundan qat-qat aşağıdır. İstini qaynayan su özünə çəkdiyindən kağız lazımi temperaturadək qızmır, ona görə də alışmır. Ancaq bu zaman kağız bir qədər qalın olmalıdır ki, suyun təsirindən cırılıb, içindəki ocağın üstünə tökülməsin. Məsələn, karton qutuda açıq ocağın üstündə rahatlıqla su qaynatmaq olar.



İdman

# HEDİS

*Almaniyadakı Saarbrüken universitetinin tələbəsi Rene Veqner bir dəfə yoldaşları ilə futbol meydançasına gəldi. Futbol oynamaq istəyirdilər. Amma meydança məşğul idi, üstəlik, oynayanların oranı tezliklə tərk etməyəcəkləri də bəlli oldu. O zaman Rene yoldaşlarına stolüstü tennis taxtasından istifadə edərək yeni bir oyun qurmağı təklif etdi.*

*Beləliklə, yeni oyun meydana gəldi: stolun hər başında bir nəfər durdu və onlar bir-birlərinə topu başları ilə tullayaraq oynamağa başladılar. Oyuna qısa ad da tapdılar – hedis. Yəni ingiliscə «head» (baş) və tennis (tennis) sözlərini birləşdirdilər və «hedis» (başla tennis) əmələ gəldi.*

*Bu hadisə 2006-cı ildə olmuşdu. İndi isə bu oyun geniş yayılmaqdadır. Bu, futbolla məşğul olmaq istəyənlər üçün yaxşı məşq sayılır, baş ötürmələri və tez reaksiyalar üçün əla oyundur. Necə bilirsən, yoxlamağa dəyər?*





*Professor tələbəyə deyir:*
*- Təbrik edirəm! Siz indicə ispan dilindən «əla» aldınız! Amma biz fransız dilini öyrənirdik axı...*
*- Bağışlayın, professor, dünən axşam rəfdən yanlış kitabı götürmüşəm.*

*Xüsusi istedadlı uşaqlar üçün məktəbdə imtahan götürürlər. Rüfətə deyirlər ki, trolleybusla avtobusun fərqini söyləsin. Rüfət deyir ki, avtobus daxili yanma mühərriki ilə, trolleybus isə dəyişkən cərəyanlı elektrik mühərriki ilə işləyir.*
*İmtahanı götürən deyir:*
*- Ay bala! Bunu sənə kim deyib? Trolleybusun buynuzu var, avtobusun isə yoxdur!*





*Tərlan anasına yalvarır:*
*- Ana, nə olar, mənə meymun al! Nə olar!..*
*- Tərlan, dəli olmusan? Ona nə yedirəcəksən?*
*- Ana, sən mənə zooparkdakı meymunu al. Orada qəfəsin üstündə yazılmışdı ki, «Meymunlara yem vermək qadağandır!»*

# BİRLİKDƏ GÜLƏK

*Müəllim:*
*- Uşaqlar, içində «p» hərfi olan bir söz deyin.*
*İlqar:*
*- Tava!*
*- İlqar, sən o «p» hərfini tavanın harasında görürsən?*
*- Qulpunda, müəllim!*



*- Uşaqlar, kim daha sürətlidir: poçt göyərçini, yoxsa at?*
*- Əgər piyada getsə, təbii ki, at...*

*- Sultan, Günəş sisteminin hansı planetlərini tanıyırsan?*
*- Yer, Venera, Mars, Snikers...*

*Müəllim:*
*- Aynur, düzünü de, sənin ev tapşırığını kim həll edib?*
*- Müəllim, vallah, bilmirəm, həmin vaxt mən yatırdım.*

*- Ata, sən bir az da böyüyəcəksən?*
*- Yox, bala.*
*- Bəs onda niyə yemək yeyirsən?*




*- Niyə yatmırsan?*
*- İnternetdəyəm.*
*- Gözəl... Mən isə qonaqlıqdayam.*
*- Kimgildə?*
*- Sizdə!*
*- Ay... unutmuşam...*

# Hədis

# QUMA yaz

Uşaqlıq dostu olan iki mömin uzaq səfərə çıxır. Səfər günlərindən birində onların arasında mübahisə düşür və dostlardan biri digərinə sillə vurur. İncik düşən dost bir söz demədən dostunun üzünə baxır, sonra qum üzərinə bu sözləri yazır: «Bu gün uşaqlıq dostum mənə sillə vurdu». Beləcə, onlar yollarına davam edirlər. Nəhayət bir meşəyə çatırlar. Vurulan dost meşədəki bataqlığa düşür. Dostu onu xilas edir. Xilas olan dost bu dəfə daşın üzərinə bu sözləri yazır: «Bu gün dostum həyatımı xilas etdi».
Dostu soruşur:
- Bir neçə gün əvvəl sənə sillə vurduqda bunu qumun üzərinə, indi, xilas edəndə isə daşın üzərinə yazırsan. Bunların mənası nədir?
Xilas olan dost belə cavab verir:
- Biri xətrimizə dəydikdə bunu qumun üzərinə yazmalıyıq ki, mərhəmət küləyi onu tez silib bizə unutdursun. Biri yaxşılıq etdikdə isə onu daşın üzərinə yazmalıyıq ki, həm bizim, həm də əbədi olaraq başqalarının xatirində qalsın. Acıqlarımızı quma, yaxşılıqlarımızı daşlara yazmağı öyrənməliyik. Yaxın dost tapmağa bir neçə dəqiqə sərf etsək də, onu unutmağa bir ömür lazım olur.


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
**Qeydiyyat nömrəsi:** 2004
2006-cı ilin noyabrından ("Körpəm" adı ilə 2006-cı ilin martından) çıxır.
**Təşkilati dəstək:** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**Baş direktor və təsisçi:**
Fizurə Quliyeva,
əməkdar mədəniyyət işçisi
**Baş redaktor:** Ülviyyə Gülməmmədova
**Məktəblərlə iş:** İlahə Quliyeva

**Korrektor:** Zahirə Dadaşova
**Bədii tərtibat:** Elşən Qurbanov
**Yayım üzrə menecer:** Rafət Quliyev

**Üz qabığında:** **Akif və Qəmər Zeynalovlar**


Müəlliflik hüququ "Göy qurşağı"na məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini və yaxud elektron variantını çap etmək və yaymaq qanuna ziddir.


Ünvan: Bakı, AZ1022
S.Vurğun küçəsi - 88.
Tel: (+99412) 597 08 51,
(+99412) 597 08 79.


**Jurnalımıza abunə olmaq istəyirsinizsə, yuxarıdakı ünvana müraciət edə bilərsiniz.**


*goyqurshagi@mail.ru*


**Tiraj 3000**


www.clb.az